***Prezident İlham Əliyev Vətən müharibəsindən sonra işğalçılardan azad edilən rayon və şəhərlərimizə mütəmadi səfərlər edir, barbarcasına dağıdılan ərazilərimizdə tikinti, abadlıq-quruculuq işlərinin gedişi ilə maraqlanır, müvafiq tapşırıqlarını verir. Dövlətimizin başçısının oktyabrın 3-də Tərtər rayonuna səfəri bir daha göstərdi ki, İkinci Qarabağ savaşında möhtəşəm qələbəmizdən ötən bir il ərzində Azərbaycan erməni faşizminin dağıtdığı yaşayış sahələrimizin bərpasına prioritet istiqamət kimi yanaşır.***

***Bir daha demək istəyirəm ki, biz qəhrəmanlıq, fədakarlıq göstərərək, qan tökərək, şəhidlər verərək tarixi ədaləti bərpa etdik, düşməni öz torpağımızdan qovduq, düşmənə lazımi dərsi verdik. Düşmən bizim qabağımızda diz çökdü, ağ bayraq qaldırdı və bundan sonra Azərbaycan xalqı əbədi olaraq qalib xalq kimi yaşayacaq.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

# Azərbaycan bundan sonra müzəffər ölkə kimi əbədi yaşayacaq



Ölkə rəhbəri səfər çərçivəsində əvvəlcə Talış kəndinə gedən avtomobil yolunun açılışını edib. Prezident İlham Əliyev həmin gün, eyni zamanda, Tərtər rayonunda Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolunun da təməlini qoyub.

Dövlətimizin başçısının Tərtər rayonuna səfəri zamanı Talış kəndində Azərbaycan bayrağını ucaltması əlamətdar hadisə kimi diqqət çəkib. Ölkə rəhbəri burada çıxış edərək deyib: "Talış kəndi düz bir il bundan əvvəl Azərbaycan Ordusu tərəfindən işğalçılardan azad edildi. Bir ildən sonra mən buradayam, Azərbaycan torpağında, azad edilmiş Talış kəndində və Azərbaycan bayrağını Talış kəndində ucaltmışam".

Prezident İlham Əliyev Talış kəndində ermənilər tərəfindən dağıdılmış alban-udi və rus-pravoslav kilsələrində də olub.

Prezident İlham Əliyev həmin gün Tərtər rayonunun Suqovuşan qəsəbəsində Azərbaycan bayrağını ucaltdıqdan sonra etdiyi çıxışında adı çəkilən yaşayış məntəqəsinin bir il bundan əvvəl düşməndən təmizləndiyini, bunun çox əlamətdar hadisə olduğunu bildirib. Dövlətimizin başçısı, eyni zamanda, müharibənin ilk günlərində belə bir strateji qəsəbənin yağıdan alınmasının mühüm uğur, böyük qələbə kimi tarixə qızıl hərflərlə yazıldığını xatırladıb. Ölkə rəhbəri deyib: "Suqovuşan qəsəbəsinin azad edilməsi strateji nöqteyi-nəzərdən çox böyük əhəmiyyət kəsb edirdi. Çünki bu qəsəbənin yerləşməsi müharibənin gedişatında önəmli rol oynayırdı və qəsəbənin əlimizdə olması bizə gələcək əməliyyatlarımızda üstünlük təşkil edirdi".

Prezident İlham Əliyevin vurğuladığı kimi, düşmən Azərbaycan Ordusunun bu istiqamətdən hərəkətə keçəcəyini bildirdi. İşğal dövründə də bu ərazi qəsbkarın diqqət mərkəzində idi və strateji istiqamət kimi dəyərləndirilirdi. Ona görə də burada çox güclü istehkamlar qurmuşdu, bir neçə müdafiə xətti yaratmışdı. Bütün strateji nöqtələrdə, qəsəbəyə gedən yüksəkliklərdə düşmən yerləşmişdi. Azərbaycan Ordusu böyük qəhrəmanlıq və fədakarlıq göstərərək şiddətli döyüşlər nəticəsində həmin əraziləri, eləcə də Talışı və Suqovuşanı işğaldan azad etdi.

Suqovuşan qəsəbəsinin və Talış kəndinin düşməndən alınması bir də ona görə mühüm önəm daşıyırdı ki, bu yaşayış sahələrinin yağı tapdağından xilası Vətən müharibəsinin ilk günlərində gələcək uğurları şərtləndirirdi; ordumuzu, xalqımızı mənən gücləndirirdi və savaşın yeddinci günündə səkkiz kəndin azad edilməsi, o cümlədən, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində yerləşən həmin kəndlərin ermənilərdən təmizlənməsi Azərbaycana böyük mənəvi üstünlük verirdi.

Dövlətimizin başçısı çıxışında qeyd edib ki, Talış və Suqovuşanda düşmənin çox böyük canlı qüvvəsi yerləşirdi. Ona görə də həmin yaşayış məntəqələrinin azad olunması ilə ordumuzun bu bölgədəki strateji yollara nəzarəti də reallaşdı və beləliklə, işğalçının canlı qüvvəsinin hərəkətinə, manevrlərinə çox böyük problemlər yarandı.

Suqovuşan qəsəbəsində eyni adlı su anbarının yerləşməsi də bu ərazinin çox böyük strateji əhəmiyyətindən xəbər verirdi. Prezident İlham Əliyev çıxışında bununla bağlı deyib: "Bu su anbarı Sərsəng su anbarı ilə bərabər ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1976-cı ildə inşa edilmişdir. Bu su anbarlarının əsas məqsədi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati hüdudlarının kənarında yerləşən rayonlara - Tərtər, Bərdə, Ağdam, Goranboy və digər rayonlara su vermək idi. İşğal zamanı mənfur düşmən bizə qarşı ekoloji terror da törədirdi, su terroru törədirdi. Hətta Avropa Şurası Parlament Assambleyasının sessiyalarının birində bu məsələ ilə bağlı xüsusi məruzə təqdim olunmuşdu və məruzə qəbul edilmişdi, qətnamə qəbul edilmişdi. Ermənistan dövləti ittiham edilmişdi və bu, bizim böyük uğurumuz idi. Təsadüfi deyil ki, ondan sonra bu məruzəni hazırlayanlara qarşı erməni lobbi təşkilatları mənəvi terror siyasəti aparmağa başlamışdı...".

Yeri gəlmişkən, düşmən işğal dövründə adları çəkilən su anbarlarından Azərbaycana qarşı silah kimi istifadə edirdi; yay mövsümündə suyu kəsirdi, qış aylarında buraxırdı. Nəticədə isti günlərdə kəndlərin su təminatında ciddi problemlər yaranır, qışda isə daşqınlara gətirib çıxaran fəlakətlər törənirdi. Bununla da qəsbkar işğal dövründə həm də belə bir vandal əməllərlə məşğul idi.

Beləliklə, Vətən müharibəsində parlaq qələbəmizdən sonra bu il ilk dəfə olaraq, Suqovuşan su anbarından Tərtər və digər rayonlara su verildi, 30 min hektar torpağın su təchizatı reallaşdı.

Hazırda kanallarda təmir işləri aparılmaqla yanaşı, Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonalarında mövcud olan su ehtiyatlarının səmərəli şəkildə istifadəsi ilə bağlı konkret addımlar atılır və çox ciddi proqram icra edilir. Bu məqsədlə su mənbələrinin bütün xəritələri tərtib edilərək, yeni su anbarlarının tikintisi məsələləri araşdırılır.

Prezident İlham Əliyev çıxışında sözügedən su anbarlarından danışarkən mühüm bir məsələyə də toxunub: "Suqovuşan-1" və "Suqovuşan-2" su elektrik stansiyalarının bərpası ilə bağlı işlər görülməyə başlanmışdır və artıq bu stansiyalar işlək vəziyyətdədir. Onlar yenidən quruldu, yenidən tikildi. Bu, bir daha bizim gücümüzü və siyasətimizi göstərir. Biz infrastruktur layihələrinin icrası ilə bağlı çox ciddi addımlar atırıq və müharibənin başa çatmasından hələ bir il keçməyib, görün nə qədər böyük işlər görülür. Bu bölgəni elektrik enerjisi və su ilə təmin etmək üçün Suqovuşan qəsəbəsinin xüsusi əhəmiyyəti var. Bu qəsəbənin azad edilməsinin digər önəmli tərəfi, bir daha demək istəyirəm ki, mənəvi-psixoloji üstünlüyümüzün daha da möhkəmləndirilməsidir".

Bu məqamda xatırlatmaq yerinə düşər ki, oktyabrın 3-də dövlətimizin başçısına Tərtərdə "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su elektrik stansiyalarının yenidənqurmadan sonra açılışında bu stansiyalarda görülən işlər barədə məlumat verilərək, bildirilib ki, "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su elektrik stansiyalarının ümumi gücü 7,8 meqavatdır. İşğalçı döyüşlər zamanı 4,8 meqavat gücündə "Suqovuşan-1" və 3 meqavat gücündə "Suqovuşan-2" stansiyalarının yararlı ehtiyat hissələrini söküb daşıyıb, apara bilmədiyini isə dağıdıb. Həmçinin döyüşlər zamanı bu elektrik stansiyalarına ciddi ziyan dəyib və nəticədə onlar tamamilə yararsız vəziyyətə düşüb.

Daha sonra diqqətə çatdırılıb ki, hər iki stansiya əsaslı şəkildə yenidən qurulub, o cümlədən onların idarəetmə mərkəzinin binaları və avadanlıqları, stansiyalararası elektrik veriliş xətti tam yenilənib. "Suqovuşan-2" stansiyasında ildə 8,7 milyon kVt/saat elektrik enerjisinin istehsal olunması nəzərdə tutulub.

Qeyd edək ki, "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyaları işğaldan azad olunmuş ərazilərin, xüsusilə Suqovuşan və Talış qəsəbələrinin elektrik enerjisi ilə təmin olunmasında mühüm rol oynayacaq. Həmçinin burada istehsal olunan elektrik enerjisi paylayıcı şəbəkənin yeni çəkilən xətləri vasitəsilə digər istiqamətlərə də ötürüləcək.

Azərbaycan Prezidenti çıxışında Vətən müharibəsinin ilk günlərinin xronikasını da xatırlatmaqla ordumuzun hansı güc-qüdrətə sahib olmasını da diqqətə çatdırıb: "Sentyabrın 27-də 6 kənd, Murovdağ silsiləsi, Ağdərə dağları, oktyabrın 3-də isə 8 kənd, o cümlədən Suqovuşan qəsəbəsi və Talış kəndi azad edildi. Oktyabrın 4-də bir çox kəndlər azad edildi, o cümlədən Cəbrayıl şəhəri.

Yəni, bu, ordumuza əlavə güc verdi, mənəvi ruh verdi. Bu mənəvi üstünlüyü biz müharibənin son gününə qədər, son dəqiqəsinə qədər saxlamışdıq. Düşmən artıq başa düşməyə başladı ki, onların bütün təbliğatı, bütün yalanları, sadəcə olaraq, uydurmadır...".

Dövlətimizin başçısı çıxışında müharibənin ilk günlərindən etibarən Ermənistan ordusunda yaşanan dərin mənəvi-psixoloji sarsıntını, qorxunu və bunun nəticəsində fərariliyin miqyasının getdicə genişləndiyini də bir daha xatırladıb. Ölkə rəhbəri işğalçı orduda on mindən çox fərarinin olduğunu, düşmənin əsgər və zabitlərinin Azərbaycan Silahlı Qüvvələrinin qarşısında dayana bilmədiklərini, buna görə də döyüş meydanından qaçdıqlarını deyib.

Azərbaycan Prezidenti daha sonra qeyd edib: "Bu fərarilərin içində Ermənistanın keçmiş prezidenti Serjik Sarkisyan da var idi. Bu yaxınlarda mənə verilən məlumata görə, o, haradasa Azərbaycan haqqında, ulu öndər haqqında öz səviyyəsinə uyğun çirkin sözlər istifadə etmişdir. Birinci fərari elə odur. Çünki o, müharibə zamanı Xankəndiyə soxulmuşdu, guya orada hansısa işlər görəcək. Amma görəndə ki, Azərbaycan Ordusu artıq gəlir və onun qulağından tutub Bakıya gətirə bilər, qorxaqcasına oradan fərari kimi qaçmışdır. Mən ona Serjik Sarkisyan ona görə demirəm ki, onu alçaltmaq istəyirəm, ona görə ki, bu, onun əsl adı və soyadıdır. Bizim arxivlərimizdə bu məlumatlar var. Onun "metirka"sında, yəni, doğum haqqında şəhadətnaməsində, onun komsomol biletində Sarkisyan Serjik yazılıbdır. Sonra bunu edib Sarkisyan Serj. Guya "Serj", necə deyərlər, məqbul bir addır".

Ölkə rəhbərinin vurğuladığı kimi, bu adam ömrü boyu oğru, cinayətkar, saxtakar, xain, satqın, fərari kimi tanınıb. Erməni cəmiyyətində də o, hərbi cinayətkar kimi, uşaq qatili kimi ad qazanıb.

Britaniyalı araşdırmaçı Tomas de Vaala müsahibəsində Xocalı soyqırımı haqda "azərbaycanlılar bilməli idilər ki, biz zarafat etmirik" deyən Serjik Sarkisyan mülki əhaliyə qarşı qətliamların başında dayanan və etnik təmizləmə müəllifi kimi tanınıb.

Araşdırmaçılar tərəfindən "Exo Moskva" radiosunun baş redaktoru Aleksey Venediktovun "48 dəqiqə" verilişinin 2009-cu il 22 aprel tarixli buraxılışında Serj Sarkisyanın əsil adının Serj yox, Serjik olduğunun açıqlandığı və bununla bağlı bir sıra həqiqətlərin ortaya çıxdığı bildirilir. Qeyd edilir ki, onun anası yezididir və qaraçı ailəsində xidmətçi işləyərkən, Serjikə hamilə qalıb. Əsil atasının kimliyi isə indiyə qədər məlum deyil və soyadını atalığından götürüb.

Sözügedən verilişdə Venediktov Levon adlı şəxsin SMS-ni də oxumuşdu. Orda yazılmışdı: "Əvvəla, Serj yox, Serjik. O, Ermənistanın prezidenti deyil, heç mənşəcə erməni də deyil, qaraçıdır, hakimiyyəti isə qəsb edib. Diktator və ondan da artığıdır. Sarkisyan qatildir, onun Monte Melkonyanın da qətlində əli olduğu bildirilir. Ola bilsin ki, Melkonyanı şəxsən kürəyindən gülləleyib".

Bu gün erməni cəmiyyətində Serjik Sarkisyanı "bic balası", eyni zamanda, 44 günlük müharibədə Azərbaycan Ordusunun darmadağın etdiyi erməni hərbi birləşmələrinin "baş memearı" adlandırılır. Bütün bunlarla bərabər, ermənilər arasında Serjik korrupsioner, silah alverçisi, dövlət büdcəsindən ayrılan vəsaitləri ələ keçirməklə müxtəlif ölkələrin ipoteka və mənzil bazarlarına külli miqdarda vəsait yerləşdirən quldur, "qumar xəstəsi" kimi tanınır.

Deyilənə görə, uzun müddət səs-səmiri eşidilməyən qaraçının qeyri-qanuni oğlu Serjik 44 günlük müharibə zamanı ortaya çıxaraq, Qarabağa gəlib və məqsədi proseslərdən istifadə edərək, Ermənistanda yenidən hakimiyyətə yiyələnmək olub. Bu niyyəti isə baş tutmadı, Azərbaycan Silahlı Qüvvələri Serjikin "yenilməz ordusu"nu, sözün əsl mənasında, darmadağın etdi və o, Xankəndidən qaçdı. İndi dövlətimizin başçısının qeyd etdiyi kimi, İrəvanda oturub banlamaqla məşğuldur...

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***